*Elnur Kərimov*[*]

# Telefonla Aparılan Danışıqların Ələ Keçirilməsi: Azərbaycan və ABŞ Qanunvericiliyi və Məhkəmə Praktikasının Müqayisəli Təhlili

***Annotasiya***

*Məqalədə telefon və digər qurğularla aparılan danışıqların, rabitə və digər texniki vasitələrlə ötürülən məlumatların və başqa məlumatların ələ keçirilməsinin maddi və prosessual aspektləri, belə məlumatlara müdaxilənin cinayət məsuliyyəti yaratdığı və ya qanuni hesab edildiyi hallar yer almışdır. Açıq və məhdudlaşdırılan informasiyalar, onların əldə edilməsi və yayılmasının legitim hesab edildiyi şərtlər Azərbaycan Respublikasının və Amerika Birləşmiş Ştatlarının bu sahədə milli qanunvericiliyində və məhkəmə praktikasında öyrənilmiş və əlavə tövsiyələr verilmişdir.*

***Abstract***

*The article is discussing substantive and procedural aspects of capturing conversations made through telephone and further devices, information transmitted by the means of communication and other technical resources, and in which condition the capture may cause criminal liability or be considered legal. Open and prohibited types of information, the cases in which the capture of such information and its disclosure is legitimate are analyzed in the example of national legislations and practice of domestic courts of Azerbaijan Republic and the United States, and further recommendations are given.*

## Mündəricat

Giriş ..... 239

I. Azərbaycan Respublikasında Telefon Danışıqlarının Ələ Keçirilməsi üzrə Milli Qanunvericilik və Praktika ..... 240

*A. Azərbaycan Respublikasının qanunvericiliyində telefon və digər qurğularla aparılan danışıqların və rabitə kanallarından məlumatların ələ keçirilməsi istintaq hərəkəti kimi* ..... 240

*B. Azərbaycan Respublikasının qanunvericiliyində telefon və digər qurğularla aparılan danışıqların və rabitə kanallarından məlumatların ələ keçirilməsi ictimai təhlükəli əməl kimi* ..... 243

*C. Açıq və məhdudlaşdırılan məlumatların əldə edilməsinin xüsusiyyətləri* ..... 244

II. Amerika Birləşmiş Ştatlarının Telefon Danışıqlarından, Poçt Göndərişlərindən və Rabitə Kanallarından Məlumatların Əldə Edilməsi və Yayılması Təcrübəsi ..... 245

Nəticə ..... 248

[*] Azərbaycan Respublikası Prezident yanında Dövlət İdarəçilik Akademiyası, Hüquqşünaslıq ixtisası üzrə 4-cü kurs tələbəsi (2016).

# GİRİŞ

1972-1974-cü illərdə Amerika Birləşmiş Ştatlarında həmin dövr üçün səs-küylü nəticələr doğuran Uotorgeyt skandalı insanların şəxsi və işgüzar həyatının nə dərəcədə əhəmiyyətli olduğunu bir daha ortaya qoymuşdu. Demokratların seçki qabağı ideya və söhbətlərinin dinləmə cihazı ilə qanunsuz dinləməyə çalışan beş nəfər şübhəli şəxs tutulduqları zaman onların o zamankı prezident Riçard Niksonla əlaqəsinin olduğu aşkarlanmışdı. Bu hadisə R. Niksonun prezidentlikdən istefası ilə nəticələnmişdi. Yazışma, telefon danışıqları, poçt və digər rabitə məlumatlarına qəsd, xüsusilə onlar sirr məzmunlu olduğu halda insanın şəxsi və işgüzar həyatını mənfi təsir edə biləcək nəticələrə səbəb ola bilər, ona görə də bir çox hallarda belə məlumatlara qəsd cəmiyyətin və dövlətin sütunlarına güclü zərbə vura bilir. Kontekst və siyasi vəziyyətdən əlavə, belə məlumatlara hər hansı qanunsuz və əsassız qəsdlə bağlı hüququn mövqeyi birmənalıdır; hər bir halda, bu məlumatlar hüququn müdafiəsi altındadır.

Telefon və digər qurğularla aparılan danışıqlar, rabitə və digər texniki vasitələrlə ötürülən məlumatlar və ya başqa məlumatların əldə edilməsi bir çox ölkələrin, o cümlədən Azərbaycan Respublikasının və Amerika Birləşmiş Ştatlarının qanunvericiliyində təsbit olunduğu kimi, həm cinayət-hüquqi, həm də cinayət-prosessual mənada araşdırılmalı məsələdir. İnsanların şəxsi və işgüzar həyatı ilə bilavasitə bağlı olan bu məlumatların hüquqi rejimi həm maddi, həm də prosessual normalarla tənzimlənir. Burada maddi normalar həmin məlumatların sahibindən başqa şəxslərin qanunsuz hərəkətlərini kriminallaşdırır, prosessual normalar isə bu məlumatların cinayət prosesində istintaq hərəkətlərinin bir növü kimi müvafiq səlahiyyətli orqanlar tərəfindən əldə olunmasının qaydalarını müəyyən edir. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 155-ci maddəsinin dispozisiyasında yazışma, telefon danışıqları, poçt, teleqraf və digər məlumatların sirrini pozma əməli kriminallaşdırılır. Prosessual norma müəyyən edən Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 259-cu maddəsi bu məlumatların ələ keçirilməsinin qanuni formalarını – cinayətin qarşısının alınması və ya cinayət işinin istintaqı zamanı həqiqəti üzə çıxarmaq naminə istintaq hərəkəti qismində məlumatların ələ keçirilməsini müəyyən edir. Göründüyü kimi, hər iki halda şəxsi və ya işgüzar həyatın sirrinə bu və ya digər formada müdaxilə olsa da, müdaxiləni həyata keçirən subyektlərin dairəsi müxtəlifdir.

Məqalədə telefon və digər qurğularla aparılan danışıqların, rabitə və digər texniki vasitələrlə ötürülən məlumatların və ya başqa məlumatların bugünkü hüquqi rejimindən, hansı məlumatların hüququn müdafiəsi altında olmasından və Azərbaycan Respublikasının və ABŞ qanunvericiliklərinin məlumatların əldə edilməsinin qanuniliyinə maddi və prosessual yanaşmalarından söhbət açılacaq, Azərbaycan Respublikasının cinayət

qanunvericiliyində tənzimlənməyən məsələlər araşdırılacaq və ABŞ-ın həmin məsələlər üzrə qanunvericilik təcrübəsi öyrənilib tövsiyə olunacaq.

## I. AZƏRBAYCAN RESPUBLİKASINDA TELEFON DANIŞIQLARININ ƏLƏ KEÇİRİLMƏSİ ÜZRƏ MİLLİ QANUNVERİCİLİK VƏ PRAKTİKA

### *A. Azərbaycan Respublikasının qanunvericiliyində telefon və digər qurğularla aparılan danışıqların və rabitə kanallarından məlumatların ələ keçirilməsi istintaq hərəkəti kimi*

Cinayət təqibinin faktiki cəhətdən daha effektiv nəticələrə nail olmasının müasir dövrdə ən səmərəli yolu müvafiq səlahiyyətli orqanlar tərəfindən həyata keçirilən cinayət-prosessual istintaq hərəkətləridir. İstintaq hərəkətlərinin aparılması zamanı təhqiqatçı, müstəntiq və ya ibtidai araşdırmanın hər hansı növünü həyata keçirən vəzifəli şəxs cinayət-prosessual hüquqla təmin olunan vasitələrdən maksimum şəkildə istifadə etməlidir. Azərbaycan Respublikasının cinayət prosesi praktikasında bu üsulların kifayət qədər istifadəsini müşahidə etmək mümkündür. Telefonların dinlənilməsi hər bir dövlətin mövcud hüququndan daha çox məsələyə yanaşması, öz təhlükəsizliyini təmin etməsi və texnoloji inkişafla bağlıdır. Belə ki, hüquq hər bir ölkənin rabitə kanallarından lazımi məlumatların hansı halda əldə edilib-edilmədiyini, onların istifadə olunmasının prosessual formalarını normativləşdirir. Cinayətlərin açılması, təqsirləndirilən şəxslərin məsuliyyətə cəlb edilməsi üçün hüquq-mühafizə orqanları müxtəlif vasitələrdən istifadə edərək sübutları əldə edir və toplayır. Bu tədbirlərdən biri də telefon və digər qurğularla aparılan danışıqların, rabitə və digər texniki vasitələrlə ötürülən məlumatların və ya başqa məlumatların ələ keçirilməsidir.

Lakin bəzən elə hallar olur ki, təhqiqatçı və ya müstəntiq üçün yalnız şübhəli şəxsin, şahidin ifadələri ilə induktiv məntiqi nəticəyə gəlmək, cinayət mühakimə icraatının yekun məqsədinə nail olmaq kifayət etmir. Təqsirləndirilən şəxsi müəyyən etmək mümkün olsa belə, sübutların kifayətliliyi qaydası cinayət təqibinin sonrakı mərhələlərində - ədalət mühakiməsi forumunda bu və ya digər formada realizə olunmur və məhkəmə əlavə sübutları lazım bilir. Deməli, sübutların əldə olunmasının istintaq hərəkətləri formasında olan əksər üsullarından fərqli olaraq, cinayət təqibini həyata keçirən orqan insan və vətəndaş hüquq və azadlıqlarına, konkret olaraq insanların şəxsi və ya işgüzar həyatına toxunaraq müəyyən sübut və dəlilləri aşkar etməyə çalışır. Bu cəhd isə, əlbəttə ki, cinayət mühakimə icraatının təyinatına uyğun olmalı və cinayət təqibinin məqsədlərinə xidmət etməlidir.

Azərbaycan Respublikasının Konstitusiyasında hər kəsin yazışma, telefon danışıqları, poçt, teleqraf və digər rabitə vasitələri ilə ötürülən məlumatın sirrini saxlamaq hüququ şəxsi toxunulmazlıq hüququnun əsaslarından biri kimi təsbit olunub.[1] Dövlət bu hüquqa konstitusion səviyyədə təminat verir. İlk növbədə, nəzərdən qaçırmaq olmaz ki, belə məlumatlar kifayət qədər şəxsidir, onların cinayət təqibini həyata keçirən səlahiyyətli subyekt tərəfindən ələ keçirilməsindən əvvəl dinlənilməsi, başqa şəxsə çatdırılması hüquq sahiblərinin şəxsi həyatlarına müdaxilənin bariz formasıdır. Belə bir müdaxilə hüquq sahibində, əlbəttə ki, psixoloji təsirlə müşayiət olunacaq. Şəxsi həyatın toxunulmazlığı hüququ yalnız ictimai maraq və mənafe üçün təhlükə yarandığı təqdirdə məhdudlaşdırıla bilər. Telefon və digər qurğularla aparılan danışıqların ələ keçirilməsi və texniki vasitələrlə ötürülən məlumatların ələ keçirilməsi istintaq hərəkətlərinin məcburi aparılması üçün, bir qayda olaraq, məhkəmə qərarının alınmasını tələb edir. Bundan əlavə, mülki hüquq belə məlumatları də şəxsi mülkiyyətə aid edir, deməli onların qanunsuz və əsassız ələ keçirilməsi mülkiyyətə qəsd kimi tövsif olunmalıdır.

Telefon və digər qurğularla aparılan danışıqların, rabitə və digər texniki vasitələrlə ötürülən məlumatların və ya başqa məlumatların ələ keçirilməsi hər zaman qanunsuz və əsassız olmur. Azərbaycan Respublikasının Konstitusiyasında qeyd olunur ki, bu hüquq qanunla nəzərdə tutulmuş qaydada cinayətin qarşısını almaq və ya cinayət işinin istintaqı zamanı həqiqəti üzə çıxarmaqdan ötrü məhdudlaşdırıla bilər.[2] Belə məhdudlaşdırılma isə öz növbəsində problem yaratmır, ona görə ki, o həmin dövlətin adından qərar çıxara bilən subyektin – məhkəmənin qərarı nəticəsində mümkün olur. Hesab edirik ki, Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyinin belə məlumatların üzərinə həbs qoyulması üçün təxirəsalınmaz hallar istisna olmaqla, məhkəmə qərarını vacib hesab etməsi uğurlu addımdır. Ona görə ki, vətəndaşlara daha yaxın olan, obyektiv və qərəzsiz məhkəmənin insanların şəxsi həyat sirrinə daxil olan telefon danışıqlarının ələ keçirilməsi, dinlənilməsi, təqib edilməsi ilə bağlı qərarının icrası da daha asan olur, vətəndaşın məhkəmə qərarı olduğu halda müqavimət göstərməsi halları azalır və burada eyni zamanda hüquqi müdafiə vasitələrinə qənaət edilir.

Qanunla müəyyən edilmiş hallardan bəhs etsək, əvvəlcə əməliyyat-axtarış fəaliyyətinə nəzər salınmalıdır. "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu telefon danışıqlarına qulaq asma, poçt, teleqraf və digər göndərişlərin yoxlanılması, texniki rabitə kanallarından və digər texniki vasitələrdən informasiyanın çıxarılmasını əməliyyat-axtarış tədbiri hesab edir. Bu hərəkətlər məhkəmə qərarı ilə həyata keçirilsə də, sözü gedən qanun müvafiq hərəkətləri ağır və xüsusilə ağır, dövlət əleyhinə olan

[1] Azərbaycan Respublikasının Konstitusiyası. Maddə 32.1 (Bakı, Qanun nəşriyyatı, 2009)
[2] *Yenə orada*: Maddə 32.4

cinayətlərin qarşısının alınması üçün təxirəsalınmaz hallarda məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olmadan da həyata keçirməyə icazə verir.[3] Əlbəttə ki, sonradan məhkəmə nəzarəti qaydasında məhkəmə əməliyyat-axtarış orqanının həyata keçirdiyi hüquq pozuntuları ilə müşayiət olunan yuxarıdakı hərəkətləri müraciət əsasında rəsmiləşdirir.

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi də tədqiqat obyektimizə oxşar münasibəti nümayiş etdirir. Şübhəli və ya təqsirləndirilən şəxsin digər şəxslərə ötürdüyü məlumatlarda (və ya şübhəli və təqsirləndirilən şəxsə ötürülən məlumatlarda) cinayət təqibi üzrə sübut əhəmiyyətinə malik olan məlumatların olmasını güman etməyə kifayət qədər əsaslar olduqda, müstəntiqin yazılı vəsatəti və ibtidai araşdırmaya prosessual nəzarəti həyata keçirən prokurorun müvafiq təqdimatı üzrə məhkəmə telefon və digər qurğularla aparılan danışıqların, rabitə və digər texniki vasitələrlə ötürülən məlumatların və ya başqa məlumatların ələ keçirilməsi haqqında qərar qəbul edir.[4] Dispozisiyanın mətnindən açıq-aşkar aydın olur ki, bu məlumatların əldə olunması üçün onların əsaslandırılması zəruridir, başqa sözlə sübutların səmərəliliyi sübut olunmalıdır. Vəsatətin mətnində, fikrimizcə, sadəcə müvafiq xahiş deyil, həm də eyni zamanda Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi maliyyə əməliyyatları, bank hesablarının vəziyyəti və vergilərin ödənilməsi də daxil olmaqla digər məlumatların da yalnız məhkəmə qərarı ilə ələ keçirilməsinin prosedurasını müəyyən edir. Ələ keçirilmiş danışıqlar və ya məlumatlar kağız, yaxud maqnit daşıyıcılarda əks etdirilir, onları ələ keçirmiş şəxsin imzası ilə təsdiq olunaraq müstəntiqə verilir. Nəzərə alınmalıdır ki, ötürülən məlumatların hər biri deyil, işə aidiyyəti olan, prosesdə sübuti əhəmiyyətə malik ola biləcək potensial məlumatlar ayrılır və protokollaşdırılır. İşə aid olmayan və əldə edilmiş məlumatlar isə dərhal cinayət işindən kənarlaşdırılır.

Hüquq ədəbiyyatlarında telefon və digər qurğularla aparılan danışıqların, rabitə və digər texniki vasitələrlə ötürülən məlumatların və ya başqa məlumatların ələ keçirilməsinin aşağıdakı formalarını fərqləndirilir:

1) Onların məhkəmə qərarı əsasında oxunulması;
2) Onların məhkəmə qərarı əsasında dinlənilməsi;
3) Onların məhkəmə qərarı əsasında qeyd edilməsi.[5]

Qeyd edək ki, bu hərəkətlərdən hər hansı birinin edilməsi telefon və digər rabitə qurğularından, məlumat kanallarından məlumatların çıxarılmasının qanuni formaları hesab olunur və cinayət mühakimə icraatının məqsədlərinə

[3] "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu. Maddə 10 (Bakı, Qanun nəşriyyatı, 2001).
[4] Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi. Maddə 259.1 (Bakı, Qanun nəşriyyatı, 2015).
[5] Firuzə Abbasova, Cinayət Prosesi, Xüsusi Hissə, Dərslik, s. 103 (Bakı, "Zərdabi LTD" MMC, 2014).

xidmət etdiyi bütün hallarda şəxsi həyata qanunsuz müdaxilə hesab edilməməlidir.

### *B. Azərbaycan Respublikasının qanunvericiliyində telefon və digər qurğularla aparılan danışıqların və rabitə kanallarından məlumatların ələ keçirilməsi ictimai təhlükəli əməl kimi*

Azərbaycan Respublikasının cinayət qanunvericiliyi telefon və digər qurğularla aparılan danışıqların və rabitə kanallarından məlumatlara müdaxilənin icazə verildiyi halları müəyyən etməklə yanaşı, digər bütün müdaxilələri ictimai təhlükəli əməl hesab edir. İnsan və vətəndaşın konstitusiya hüquq və azadlıqları əleyhinə törədilən cinayətlər sırasına Cinayət Məcəlləsinin 155-ci maddəsi – yazışma, telefon danışıqları, poçt, teleqraf və digər məlumatların sirrini pozma əməli daxil edilmişdir. Burada belə məlumatların sirrini pozma əməli özündə telefon danışıqlarına qulaq asma, elektrik rabitə məlumatları ilə tanış olma, poçt göndərişləri və bağlamaları açma, onlar haqqında məlumatları əldə etmə və yayma, habelə hər hansı başqa şəkildə bu sirri pozmanı birləşdirir.[6]

Hesab edirik ki, qanunverici bu normada məlumat sahibinin razılığı məsələsini ifadə etməməklə ictimai təhlükəli əməlin obyektiv cəhətinin dairəsini kifayət qədər məhdudlaşdırmışdır. Dünya ölkələrinin təcrübəsində, o cümlədən ABŞ-da əməlin cinayət hesab edilməsi üçün tərəflərin razılığının olmadığı sübut edilməlidir. Burada razılıq anlayışı özündə xüsusi təsdiqedici hərəkətləri (şifahi danışıq, jestlər, mimikalar və s) və yazılı razılığı birləşdirir ki, bunlardan hər hansı birinin telefon və digər danışıq məlumatları dinlənilən şəxsdən alınması bu məlumatların dinlənilməsini tamamilə hüquqi çərçivəyə salır. Texnologiyanın bugünkü inkişafı, xüsusilə, bizi insanların telefon danışıqlarının və yazışma sirrinin qorunması üçün daha təkmil mexanizmlər hazırlamağa vadar edir. Yazışma və telefon danışıqları, adətən, ən azı iki nəfər subyekt arasında həyata keçirilir və bu halda onlardan birinin razı, digərinin narazı olarsa, danışıqların qeydə alınmasının Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 155-ci maddəsinin cinayət tərkibini yaradıb-yaratmadığı sual olaraq qalır. Normanın dispozisiyasında belə qənaətə gəlmək olar ki, qanunverici burada sirr anlayışına şəxsi və ya işgüzar həyatın bir hissəsini təşkil edən elə məlumatları daxil edir ki, bu məlumatların üçüncü şəxslərə məlum olması sirr sahibinə maddi və ya mənəvi ziyan vura bilər. Lakin bəzi hallarda, məsələn işgüzar görüşlərdə yazışma məlumatları və onların sirri yazışan hər iki tərəfə aid olur. Tərəflərdən biri bu məlumatların yayılmasından zərər görə, digəri isə buna nəinki razı olar, hətta bu yazışmanın qeydə alınmasından, yayılmasından

[6] Azərbaycan Respublikası Cinayət Məcəlləsinin Kommentariyası, s. 414 (Firudin Səməndərovun redaktəsi ilə, Bakı, 2013).

yüksək gəlir götürə bilər. Cinayət Məcəlləsinin 155-ci maddəsi isə birtərəfli, yoxsa bütün tərəflərin razılığının tələb olunmasını özündə ehtiva etmir.

### *C. Açıq və məhdudlaşdırılan məlumatların əldə edilməsinin xüsusiyyətləri*

Telefon danışıqlarının dinlənilməsi, poçt və rabitə kanallarından məlumatların əldə edilməsi zamanı açıq və ya məhdudlaşdırılan informasiyaları da diqqətdə saxlamaq lazımdır. Ona görə ki, açıq informasiyalar şəxsi və ya işgüzar həyatın sirrini təşkil etmir və bu informasiyaların əldə edilməsi, toplanması və ya yayılması yuxarıda haqqında bəhs etdiyimiz cinayət məsuliyyətini yaratmayacaq. Bəs hansı informasiyalar açıq, hansıların alınması məhdudlaşdırılan informasiyalardır?

"İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununun 2-ci maddəsinə əsasən, əldə olunması məhdudlaşdırılmayan informasiyalar açıq informasiyalar hesab olunur. Əldə edilməsi qanunla məhdudlaşdırılan informasiyalar isə hüquqi rejiminə görə məxfi və gizli (konfidensial) olur. Dövlət sirri məxfi informasiyalar qrupuna aid edilir. Gizli (konfidensial) məlumatlar isə aşağıdakı kimi sadalanır:

1) vətəndaşların, mülkiyyət növündən asılı olmayaraq yaradılmış idarə, müəssisə, təşkilatların və digər hüquqi şəxslərin qanuni maraqlarının qorunması məqsədilə əldə olunmasına məhdudiyyət qoyulan peşə (məsələn, həkim, vəkil, notariat və s) sirləri;
2) kommersiya sirləri;
3) istintaq sirri;
4) məhkəmə sirləri.[7]

Yuxarıda sadalanan məlumatları qanunla müəyyən edilmiş hallar istisna olmaqla, yalnız məhkəmələr tərəfindən qəbul edilmiş qərar əsasında cinayət təqibini həyata keçirən orqan və ya onun vəzifəli şəxsi tərəfindən istintaq hərəkəti kimi ələ keçirilə bilər. Qanun konfidensial məlumatların sırasına fərdi məlumatları (şəxsi və ailə həyatını təşkil edən, habelə siyasi baxış, etiqad kimi məlumatlar) aid etmir.[8] Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi bu hərəkətlərin həyata keçirilməsi üçün maksimum müddət kimi 6 ay müəyyən etmişdir ki, fikrimizcə, bu qayda vətəndaşların hüquqlarının qanuni əsaslarla da olsa, pozulmasını minimum həddə endirməyə xidmət edir. Hesab edirik ki, burada diqqət edilməli məqam məlumatların ələ keçirilməsi prosesini gecikdirməmək, gecikmə olduğu hallarda vətəndaşın

[7] "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının 3 aprel 1998-ci il tarixli Qanunu, Maddə 2 (Bakı, Qanun, 2007).

[8] "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının 41-IVQVD nömrəli Qanunu, 30 dekabr 2010-cu il.

telefon danışıqlarının, yazışmalarının daha uzun müddətə dinlənilməsinin, əldə edilməsinin ağlabatan səbəbləri ilə müntəzəm məlumatlandırmaqdır.

## II. AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ TELEFON DANIŞIQLARINDAN, POÇT GÖNDƏRİŞLƏRİNDƏN VƏ RABİTƏ KANALLARINDAN MƏLUMATLARIN ƏLDƏ EDİLMƏSİ VƏ YAYILMASI TƏCRÜBƏSİ

Xarici ölkələrdə telefon danışıqlarının, rabitə, poçt və teleqraf göndərişlərinin ələ keçirilməsi təcrübəsinə nəzər salsaq, cinayət-prosessual hüququn institutu kimi istintaq hərəkətlərinin bu növündən istifadə ABŞ-ın müxtəlif ştatlarının qanunvericiliyində ətraflı əks olunmuşdur.

Federal səviyyədə qanunvericiliyə əsasən, telefonla, şifahi və yazılı danışıqların qeyd alınması üçün tərəflərdən birinin razılığı kifayət edir. Ümumiyyətlə, federal qanunvericilik şəxslərin xəbəri olmadan qanunsuz dinləmələri qadağan etsə də, bu normalar həm də elektron vasitələrdən istifadə etməklə telefon danışıqları və müsahibələr də daxil olmaqla hər hansı söhbətə tətbiq edilir. ABŞ-ın 38 ştatı və Kolumbiya regionunda qanunvericilik icazə verir ki, şəxslər özlərinin tərəf kimi çıxış etdiyi söhbətləri qarşı tərəfdən icazə almadan elektron cihazla qeydə alsın. Lakin məlumatların ələ keçirilməsi zərurəti Konstitusiyanın və həm ştatların, həm də federal səviyyədə qanunların pozulması, hüquq pozuntusu və ya ictimai təhlükəli əməllə bağlıdırsa, razılıq olmadığı halda da məlumatların səlahiyyətli orqanlar tərəfindən ələ keçirilməsi qanunidir. Federal qanunvericilik ştatlar üçün məcburi hesab edildiyindən, deməli, bu normalar o cümlədən, Amerikanın 50 ştatında qüvvədədir.

Kaliforniya ştatında telefon danışıqları istisna olmaqla, danışıqların qeydə alınması o halda qanunidir ki, səsyazma cihazına qarşı tərəfin eşidəcəyi dərəcədə siqnal quraşdırılsın. Kaliforniya ştatının Cəza Məcəlləsi telefon danışıqlarının ələ keçirilməsini bütün tərəflərin razılığı olduğu halda mümkün hesab edir, digər hallarda isə bu məlumatların ələ keçirilməsi qadağan olunur.[9] Məcəllə eyni zamanda bəzi halları bu normanın tətbiq dairəsindən istisna edir:

1) dövlət orqanlarında və ictimai yerlərdə edilən söhbətlər zamanı;
2) məhkəmə və ya inzibati icraatlarda edilən söhbətlər zamanı;
3) tərəflərdən biri və ya hər ikisinin onların danışıqlarının eşidilə və ya qeydə alına biləcəyini bildiyi və bilməli olduğu hallar.[10]

Kaliforniya məhkəmə praktikası danışıqlardan məluatların ələ keçirilməsində tələb olunan ikitərəfli razılığı istisna edən bir halı müəyyən edir. Əgər danışıqları qeydə alınan iki nəfərdən söhbət gedirsə, onlardan biri

[9] California Penal Code. § 632.
[10] Yenə orada: § 632 (c).

telefon danışığının qeydə alınmasına razı deyilsə, digəri isə danışığın qeydə alınması barədə xəbərdar edilməsinə baxmayaraq, danışığı davam etdirirsə, belə halda məlumatların ələ keçirilməsinə icazə verilir. Deməli, birtərəfli razılıq yalnız bu halda mümkündür.

Arizona ştatının cinayət-prosessual hüquq praktikası bu məsələ ilə bağlı qadağanedici metodların tətbiqindən uzaq görünür. Telefon danışıqlarının qeydə alınması üçün tərəflərdən birinin razılığı kifayət edir.[11] Arizona Ştatının Cinayət Məcəlləsi telefonun əsas qanuni sahibinə üçüncü şəxs olduğu hallarda belə icazə verir ki, telefon danışıqlarını heç bir icazə olmadan qeydə alsın.[12] Hər halda, istintaq hərəkəti kimi bu danışıqların ələ keçirilməsi qanuni olsa da, bəzi ölkələr haqqında bəhs etdiyimiz Amerika Birləşmiş Ştatlarının Arizona ştatının qanunvericiliyindən fərqli olaraq, belə məlumatların ilk növbədə mobil operatorlar tərəfindən toplanmasını qadağan edir. Şübhəsiz, onların sonradan dövlət orqanına təhvil verilməsi də qanunsuz olacaq. Cinayət təqibini həyata keçirən orqan bu məzmunda rabitə vasitələri kanallarından mühüm hesab etdiyi, sübuti əhəmiyyətli məlumatları ələ keçirmək istəyirsə, bunun üçün başqa qanuni üsullardan istifadə etməlidir.

Nevada ştatında telefon və şəxsi danışıqların qeydə alması ilə bağlı qanunvericilik və məhkəmə təcrübəsində fərqli qaydalar nəzərə çarpır. Belə ki, qanuna əsasən, telefon danışıqlarının tərəflərdən ən azı birinin razılığı olmadan gizli qeydə alınması və yayılması qanunsuz hesab edilir. Məhkəmə qərarlarında isə bütün tərəflərin razılığını tələb edən hallara rast gəlinir. Nevada Ali Məhkəməsinin "*Lane Allstate Ins. Co.* şirkətinə qarşı" işində belə bir presedent formalaşdırmışdır ki, hər hansı bir fərd, özü söhbətin tərəfi olduğu hallar da daxil olmaqla, yalnız bütün tərəflərin razılığı olanda bu danışığı qeydə ala bilər.[13]

İllinois ştatında müxtəlif rabitə kanalları və telefon danışıqları üçün ayrı-ayrı qaydalar nəzərdə tutulur. İlk növbədə, telefon danışıqlarının müşahidə və qeyd olunması üçün tərəflərin əvvəlcədən razılığı tələb olunur. İşgüzar zənglər və şəxsi telefon danışıqları qanunvericilik səviyyəsində fərqləndirilməsə də, ştatın bəzi məhkəmələri bizneslə bağlı zənglərin qanunsuz dinləmə cihazları ilə qeydə alınmasını da qadağan edir. Belə qanunsuz hərəkətlər isə qanunla kriminallaşdırılmışdır. Telefon və digər qurğularla aparılan danışıqların, rabitə və digər texniki vasitələrlə ötürülən məlumatların və ya başqa məlumatların qanunsuz və əsassız olaraq ələ keçirilməsinə görə İllinois ştatının cinayət qanunvericiliyi 3 il azadlıqdan

[11] Arizona Criminal Code. C.30, 13-3005.
[12] Yenə orada: C.30, 13-3012.
[13] Laws on Recording Conversations in All 50 States (2016). https://www.mwl-law.com/wp-content/uploads/2013/03/LAWS-ON-RECORDING-CONVERSATIONS-CHART.pdf/ (son baxış 11 aprel, 2016).

məhrumetmə və ya 10.000 (on min) dollar cərimə müəyyən etmişdir. Bu cəza həmçinin vurulmuş ziyanın əvəzinin ödənilməsi ilə müşayiət olunur.

Miçiqan ştatının qanunvericilik və məhkəmə təcrübəsi telefon danışıqlarının və rabitə qurğularından digər məlumatların əldə edilməsində maraqlı qaydalar müəyyən edir. Qanunvericilik bir çox digər ştatlarda olduğu kimi, danışıqların qeydə alınması üçün tərəflərdən birinin razılığını tələb etsə də, məhkəmə praktikasında xüsusi hallara da rast gəlinir. Miçiqan apellyasiya məhkəməsi "Sullivan Greyə qarşı" işində maraqlı bir şərh edərək qeyd edir ki, danışıqların qeydə alınması ilə bağlı məhdudiyyətlər yalnız üçüncü şəxslərin danışığı qeydə almasına şamil olunmalıdır.[14] Lakin bu müddəa qanunun mövqeyindən kənar şərh deyil. Məhkəmə burada qanunun normasının genişləndirici təfsirinə yol vermiş və bu məhkəmə presedenti normanı söhbətdə iştirak edən üçüncü şəxslərə də aid edir.

Pensilvaniya ştatının təcrübəsi telefon danışıqlarının qeydə alınmasını bəzi situasiyalarda nəinki qadağan etmir, hətta bunu labüd bilir. Bu ştatın qanunvericiliyinə əsasən danışıqların qeydə alınması üçün tərəflərin razılığı vacibdir. Aşağıdakı hallarda isə qarşı tərəfin razılığı olmadan da, telefon danışığının dinlənilməsi və yazılması yol verilən hesab olunur:

1) Razı olmayan tərəf razı olan tərəfin özünün və ailə üzvlərinin həyatına bu və ya digər formada fiziki və psixi hədələr göstərərsə;
2) Razı olmayan tərəf müəyyən bir cinayət törətdikdə, xüsusilə o, bu cinayət əməlinin törətməyə cəhd etdikdə yaxud cinayət hazırlıq mərhələsində olduqda;[15]

Pensilvaniya ştatının sözü gedən qanununa nümunə kimi qeyd edə bilərik ki, əgər məlumatların dinlənilməsinə razı olmayan tərəf razı tərəfə narkotik maddələrin bir növü olan marixuana almağı təklif edirsə, hələ heç bir cinayət əməli törətməsə belə, qarşı tərəf telefon danışığını qeydə ala bilər. Eyni zamanda ştatın "Əməliyyat-axtarış haqqında" Qanununa əsasən, xüsusi texnikanın köməyi ilə əldə olunmuş məlumat açıqlandığı zaman həmin şəxs bu məlumatın qanunsuz əldə edilməsinə və ya əməliyyat-axtarış tədbirlərində xüsusi texnikanın istifadə edilməsi üçün icazə alınmamasına əsaslanaraq cinayət təqibinin gedişində ifadə verməkdən imtina edə və məhkəməyə müraciət edə bilər.

Beləliklə, Azərbaycan Respublikasında və ABŞ-da həm federal, həm də ştatlar səviyyəsində telefon və digər qurğularla aparılan danışıqların, rabitə və digər texniki vasitələrlə ötürülən məlumatların və ya başqa məlumatların ələ keçirilməsi təcrübəsini aşağıdakı sxemdə müqayisə edə bilərik[16]:

---

[14] *Sullivan v. Gray*. Michigan Comparative Laws Ann. § 750.539(c); 117 Mich. App. 476, 324 N.W.2d 58 (1982).

[15] 18 Pa. Cons. Stat. Ann. Sec. 5704(4)

[16] Reporter's Recording Guide (August 1, 2012) http://www.rcfp.org/reporters-recording-guide/tape-recording-laws-glance (son baxış 12 aprel, 2016)

| | Birtərəfli yoxsa ikitərəfli razılıq tələb olunur? | Qanunsuz qeydə almağa görə cərimə tətbiq olunurmu? | Gizli kameralar haqqında ayrıca qanun varmı? | Məlumatı yaymağa və nəşr etməyə görə əlavə cərimə nəzərdə tutulurmu? |
|---|---|---|---|---|
| Azərbaycan Respublikası | | ✓ | | ✓ |
| ABŞ (federal) | ✓ | ✓ | | ✓ |
| Arizona ştatı | ✓ | ✓ | ✓ | ✓ |
| İllinois ştatı | ✓✓ | ✓ | ✓ | ✓ |
| Kaliforniya ştatı | ✓✓ | ✓ | ✓ | ✓ |
| Konnektikut ştatı | ✓✓ | ✓ | ✓ | ✓ |
| Nevada ştatı | ✓✓ | ✓ | ✓ | ✓ |
| Miçiqan ştatı | ✓✓ | ✓ | ✓ | ✓ |

✓✓ - ikitərəfli razılıq, ✓ - birtərəfli razılıq deməkdir.

# Nəticə

Telefon və digər qurğularla aparılan danışıqların, rabitə və digər texniki vasitələrlə ötürülən məlumatların və ya başqa məlumatların ələ keçirilməsi institutu üzrə Azərbaycan Respublikasında və Amerika Birləşmiş Ştatlarında istər cinayət hüququnun, istərsə də cinayət-prosessual hüququn daxilində bənzər hüquqi tənzimlənməyə rast gəlmək mümkündür. Hər iki hüquq sistemində belə məlumatların əldə edilməsinə yalnız istintaq hərəkətləri qismində cinayətlərin qarşısının alınması və ya törədilmiş cinayətlərin açılması üçün, bir qayda olaraq, məhkəmə qərarı ilə icazə verilir. Məlumatların üçüncü şəxslər tərəfindən əldə edilməsi isə cinayət məsuliyyəti yaradır.

Bununla belə, Azərbaycan Respublikasının cinayət qanunvericiliyində məlumatların qeyri-qanuni əldə edilməsi zamanı razılığın həddi müəyyənləşdirilməmişdir. Hesab edirik ki, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 155-ci maddəsində telefon danışıqlarının və yazışmaların tərəflərdən birinin və ya üçüncü şəxsin qeydə alması zamanı "razılıq" məsələsinin tənzimlənməməsi qanunvericilikdə boşluq kimi dəyərləndirilməli və ABŞ mövcud təcrübəsindən istifadə olunmalıdır.

Yuxarıda qeyd olunanları nəzərə alaraq, məqaləni aşağıdakı tövsiyələrimizlə yekunlaşdırırıq:

1. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 155-ci maddəsində "tərəflərdən heç birinin razılığı olmadığı halda" ifadəsi dispozisiya əlavə olunmalıdır və məlumatların qanuni yayılması, ümumi qaydada, ikitərəfli razılığı özündə ehtiva etməlidir.
2. Sözü gedən normanın dispozisiyasının qeyd hissəsində "telefon danışıqlarının, yazışmaların, poçt göndərişlərinin və digər rabitə qurğularından ötürülən məlumatların tərəflərinin birinin razılığı olduqda və həmin şəxs qarşı tərəfi bu barədə məlumatlandırdıqda belə məlumatın sirrinin pozulması bu cinayət tərkibini yaratmır" qeydi əlavə olunmalı və birtərəfli razılığa icazə verən müstəsna hal da burada ifadə olunmalıdır.